# YAP-ın yubiley toplantıları davam edir

***Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir. Noyabrın 14-də partiyanın Sabirabad, Lənkəran, Xaçmaz və Naftalan rayon təşkilatlarında yubiley mərasimləri keçirilib.***

Toplantılarda ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Sabirabad rayonunda YAP rayon təşkilatının sədri Varis Rüstəmov, rayon icra hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov, YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən Məmməd Nəsirov, YAP İdarə Heyətinin üzvü, professor Tofiq Cahangirov; Xaçmaz rayonunda YAP rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov, rayon icra hakimiyyətinin başçısı Elnur Rzayev, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən Sudeyif İmamverdiyev, Milli Məclisin deputatı Sevil Mikayılova; Naftalanda YAP şəhər təşkilatının sədri Rövlan Heydərov, şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov, Milli Məclisin deputatı Anar Məmmədov, YAP İdarə Heyətinin üzvü Bayram Aslanov və başqaları çıxış ediblər.



Çıxışlarda Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının 30 il ərzində şərəfli inkişaf yolu keçdiyi, ümumxalq partiyası kimi dövlətimizin milli maraqlarının qorunmasında müstəsna rol oynadığı diqqətə çatdırılıb. Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və əbədiyaşar ideyaları Azərbaycan xalqının milli sərvətidir. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət ölkəmizin dünyada söz və nüfuz sahibi olan qüdrətli və qalib dövlətə çevrilməsini təmin edib.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 15 noyabr.- S.5.